**“Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 887-VIQD nömrəli Qanununun tətbiqi və “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 887-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 8.0.10-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 8.0.10-1-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 887-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 8, maddə 621; 2005, 2, maddə 64, 8, maddə 718; 2006, 7, maddə 590; 2007, 6, maddə 606; 2010, 4, maddə 287, 7, maddə 610; 2011, 11, maddə 998; 2013, 9, maddə 1052, 12, maddə 1509; 2014, 2, maddə 108, 4, maddə 361, 6, maddə 632; 2015, 7, maddə 827, 9, maddə 1016; 2016, 11, maddə 1825; 2017, 3, maddə 348; 2018, 2, maddələr 202, 203; 2020, 7, maddə 891, 12 (I kitab), maddə 1477; 2022, 8, maddə 852; 2023, 1, maddələr 72, 77) 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.2.3-cü yarımbəndə “7.2-ci” sözlərindən sonra “, 8.0.10-1-ci” sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 4.2.3-1-ci yarımbənd əlavə edilsin:

“4.2.3-1. həmin Qanunun 8.0.10-1-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 iyun 2023-cü il
2184